Azərbaycan Respublikasının
Prezidenti yanında
Antiinhisar və İstehlak Bazarına
Nəzarət Dövlət Agentliyi

# BMT-nin ƏRZAQ və KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ (FAO) ƏRZAQ QİYMƏTLƏRİNİN İNDEKSİ

10 fevral 2026

# ÜMUMİ MƏLUMAT

- FAO Ərzaq Qiymətləri İndeksi (FFPI) 2026-ci ilin yanvar ayında orta hesabla **123.9-a** bərabər olmuşdur. Bununla da ərzaq qiymətləri indeksi dekabr ayı ilə müqayisədə **0.4% azalıb** və ötən ilin müvafiq dövrü ilə müqayisədə isə **0.6% azalıb**.
- Son qiymət azalmasının əsas səbəbləri:
  - ✓ Şəkər,
  - ✓ Süd,
  - ✓ Ət məhsulları üzrə qiymət azalmasıdır.



# TAXIL MƏHSULLARI (DƏNLİ BİTKİLƏR)

- Taxıl məhsullarının Qiymət İndeksi yanvar ayında orta hesabla **107.5 bənd** təşkil edib:
  - dekabr ayına nisbətən **0.2 bənd (0.2%) artıb;**
  - ötən ilin müvafiq dövrü ilə müqayisədə **4.4 bənd (3.9%) azalıb.**
- Taxıl məhsullarının qiymət indeksinin **artmasının** əsas səbəbləri:
  - ✓ Argentina və Braziliyada əkin şəraiti ilə bağlı narahatlıqlar və ABŞ - da güclü etanol tələbatı fonunda qarğıdalı qiymətinin artması;
  - ✓ Argentinada olan yüksək tələbat fonunda arpa qiymətinin artması;
  - ✓ Ətirli sortlara olan yüksək tələbat fonunda düyü qiymətinin artması.



# BİTKİ YAĞLARI

- Bitki yağı Qiymətləri İndeksi yanvar ayında orta hesabla **168.6 bənd** təşkil edib:
  - ✓ dekabr ayına nisbətən **3.4 bənd (2.1 %) artıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **15.6 bənd (10.2%) artıb.**
- Bitki yağları qiymət indeksinin **artmasının** əsas səbəbləri:
  - ✓ Cənub-Şərqi Asiyada mövsümi istehsalın azalması fonunda beynəlxalq palma yağı qiymətinin artması;
  - ✓ Cənubi Amerikada ixrac azalması və ABŞ - da bioyanacaq sektorundan yüksək tələb fonunda soya yağı qiymətinin artması;
  - ✓ Qara dəniz bölgəsində davamlı tədarük sıxlığı fonunda günəbaxan yağı qiymətinin artması.



# ƏT MƏHSULLARI

Antiinhisar və İstehlak
Bazarına Nəzarət
Dövlət Agentliyi

- Ət Qiymәti İndeksi yanvar ayında orta hesabla **123.8 bənd** təşkil edib:
  - ✓ dekabr ayına müqayisədə **0.5 bənd (0.4%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **7.1 bənd (6.1%) artıb.**

- Ət məhsulları qiymət indeksinin **azalmasının** əsas səbəbləri:
  - ✓ Avropa Birliyindəki tələbatın azalması və yüksək tədarük fonunda donuz əti qiymətinin azalması.



# SÜD MƏHSULLARI

- Süd məhsullarının Qiymətləri İndeksi yanvar ayında orta hesabla **121.8 bənd** təşkil edib:
  - ✓ dekabr ayı ilə müqayisədə **6.4 bənd (5.0%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **21.3 bənd (14.9%) azalıb.**

- Süd məhsullarının qiymət indeksinin **azalmasının** əsas səbəbləri:
  - ✓ Avropada ehtiyatların yüksək səviyyədə olması, digər əsas istehsalçı regionlarda ixraca yönəlik tədarüklərin çoxluğu və süd yağının kifayət qədər mövcudluğu fonunda kərə yağı qiymətinin azalması;
  - ✓ Qlobal rəqabətin artması fonunda pendir qiymətinin azalması.



# ŞƏKƏR



- Şəkər Qiymət İndeksi yanvar ayında orta hesabla **89.8 bənd** təşkil edib:
  - ✓ dekabr ayına nisbətən **0.9 bənd (1.0 faiz) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **21.4 bənd (19.2%) azalıb.**

- Şəkər məhsulları üzrə qiymət indeksinin **azalmasının** əsas səbəbləri:
  - ✓ Hindistanda yüksək istehsal artımı və Taylandda əlverişli perspektivlər ilə dəstəklənən cari mövsümdə qlobal şəkər tədarükünün artması fonunda şəkər qiymətinin azalması;



Azərbaycan, Bakı, AZ1000, Səbail r., Ü.Hacıbəyov k., 84,
Hökumət Evi, 7-ci qapı
Tel.: (+994 12) 599 76 00, Faks: (+994 12) 497 24 08
E-mail: office@competition.gov.az
www.competition.gov.az